**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# Aİ-NİN VƏ ABŞ-IN CƏNUBİ QAFQAZ ÜZRƏ XARİCİ SİYASƏTİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

İxtisas: 5901.01 – “Beynəlxalq münasibətlər”

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Günel Şahin qızı İsmayılzadə**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2022**

Dissertasiya işi AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun "Müasir siyasətin fəlsəfəsi" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: siyasi elmlər doktoru
**Ramiz Məmmədəli oğlu Sevdimalıyev**

Rəsmi opponentlər: siyasi elmlər doktoru, professor
**Elman Xudam oğlu Nəsirov**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Zümrüd Eldar qızı Məlikova**

siyasi elmlər üzrə fəlsəfə doktoru
**Eldar Arif oğlu Cəfərov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri:
Akademik
**Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi:
siyasi elmlər doktoru, prof.
**Ziyafət Ziya qızı Həbibova**

Elmi seminarın sədri:
siyasi elmlər doktoru, prof. əv.
Adil Mirabdulla oğlu Mirabdullayev

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Cənubi Qafqaz regionu dünyanın strateji cəhətdən mühüm əhəmiyyət kəsb edən bölgələrindən biridir. Region İran, Türkiyə və Rusiya kimi nəhəng ölkələrlə əhatə olunmaqla, Avropanın Asiyaya çıxışını və təhlükəsizliyini təmin edir. 1991-ci ildə SSRİ-nin dağılması fonunda Azərbaycan, Gürcüstan və Ermənistan respublikalarının müstəqillik qazanması ilə siyasi arenada güc mübarizəsi üçün yeni boşluqlar yaranmağa başladı. 1990-cı ilin əvvəllərində region respublikalarının hərbi münaqişələri həll etməklə yanaşı, qarşıya qoyduqları ən başlıca məqsədlərdən biri yeni formalaşan dövlətlərdə azad iqtisadi şəraitdə iqtisadi təhlükəsizliyin təmin edilməsi və qloballaşan dünyada sağlam qarşılıqlı əlaqələrin qurulması idi.

-İkiqütblü dünya nizamının dağılması və çoxqütblü dünya nizamına inteqrasiya dünyanın siyasi arenasında yeni müstəqil dövlətlərin və geostrateji cəhətdən əhəmiyyət kəsb edən bölgələrin yaranmasına gətirib çıxartdı. XX əsrin sonuna doğru dünyada cərəyan edən siyasi proseslər Cənubi Qafqazın da siyasi konyunkturasını dəyişməklə yanaşı, eyni zamanda, bölgəni aktiv regionlar sırasına daxil etdi.

-Beynəlxalq ədəbiyyatda Cənubi Qafqaz dünyanın nadir qeyri-homogen bölgələrindən biri kimi qiymətləndirilir. Öz hüdudları çərçivəsində 60-dan çox etnik qrupa ev sahibliyi edən region müsəlman və qeyri-müsəlman etnik qrupları özündə bir araya gətirib.
Azərbaycanda multikulturalizmə-dini, irqi, etnik və mədəni müxtəlifliklərin tənzimlənməsinə yönələn bir siyasət kimi çöx mühüm önəm verilir.

-Cənubi Qafqazla qlobal güclər arasındakı qarşılıqlı əlaqələr region ölkələrinin 1991-ci ildən müstəqillik qazanması ilə yeni mərhələyə qədəm qoymuşdur. Müstəqillik qazandıqdan sonra ABŞ siyasi elitasının maraq dairəsinə daxil olan Cənubi Qafqaz ABŞ-ın Rusiyanın bölgəyə nüfuzunun qarşısının alınması və tədricən Avropa İttifaqının (Aİ) enerji təhlükəsizliyinin təmin edilməsi üçün strateji əhəmiyyət kəsb edən region olaraq nəzərdən keçirilmişdir.

- Qlobal nüfuza malik dövlətlərin, o cümlədən ABŞ-ın Cənubi Qafqaz respublikaları ilə ikitərəfli münasibətlərinin öyrənilməsi daim aktuallığını saxlayır.

XX əsrdə Cənubi Qafqaz dövlətləri ikinci dəfə 1991-ci ildə müstəqillik əldə etdikdən sonra ABŞ hər bir ölkənin müstəqilliyini tanıdı, səfirliklər açıldı, ilk ikitərəfli sənədlər imzalandı. Lakin 1991-1992-ci illərdə regionda mövcud olan gərgin vəziyyəti nəzərə alaraq Cənubi Qafqazla daha sıx əlaqələrin qurulmasına tərəddüd edilirdi. ABŞ uzun müddət bölgəni Yaxın Şərq siyasətinin ayrılmaz tərkib hissəsi kimi qəbul etmiş və regionu İran və Rusiyanın bölgədəki gücünün zəiflədilməsi kontekstindən qiymətləndirmişdir. Region ölkələrinin iqtisadi-siyasi seçimləri münasibətlərə yeni istiqamət vermiş və nəticə etibarilə hər üç ölkənin siyasi seçimi onların xarici siyasət strategiyasını müəyyən etmişdir. ABŞ-ın bölgənin müstəqil dövlətləri ilə ayrı-ayrılıqda əlaqələr quraraq onların müstəqilliyini daha da gücləndirmək və bu yolla da Rusiyanın həmin ölkələr üzərində təsirinin azaldılmasına nail olmağa çalışmaq daha məqsədəmüvafiq hesab edilmişdir.

Cənubi Qafqazın beynəlxalq proseslərə inteqrasiyasından bəhs edərkən Aİ-nin bölgədəki rolunu xüsusilə təhlil etmək lazım gəlir. Aİ-Azərbaycan münasibətlərinin hüquqi əsası 1996-cı ildə iki tərəf arasında imzalanan və 1999-cu ildə qüvvəyə minən TƏS ilə qoyulmuşdur. 2004-cü ildə Cənubi Qafqaz ölkələri və Moldova, Ukrayna, Belarus Avropa Qonşuluq Siyasəti proqramına daxil edilmişdir. Region ölkələrinin müstəqilliyinin möhkəmləndirilməsi məqsədilə bölgəyə humanitar yardımlar göstərən Aİ-nin xarici siyasət kursunda 2009-cu ildən etibarən Şərqə doğru genişlənmə hesabına nəzərəçarpan dəyişikliklər müşahidə edilməyə başlamışdır. Başqa sözlə, ilkin mərhələdə respublikamızın inkişafına maliyyə dəstəyi göstərməkdən başlayan Aİ-Azərbaycan münasibətləri sonrakı mərhələdə enerji və digər sahələrdə strateji əməkdaşlığa doğru irəliləmişdir. Buna nümunə olaraq qeyd edək ki, Azərbaycanla Aİ arasında 2019-cu ilin yanvar ayında "Əməkdaşlıq Prioritetləri"nin imzalanması münasibətlərin yüksələn xətt üzrə inkişaf etməsindən xəbər verir. Bununla yanaşı, sözügedən sazişə ikitərəfli münasibətlərdə enerji səmərəliliyinin təmin edilməsi və iqlim dəyişikliyi üzrə əməkdaşlıq kimi yeni elementlərin daxil edilməsi bundan sonrakı mərhələdə tərəfdaşlığın daha da genişlənəcəyini qeyd etməyə imkan verir.

-Beləliklə, hər üç Cənubi Qafqaz respublikasının bir-birindən fərqli xarici siyasət kursu və siyasi arenada müxtəlif müttəfiqləri mövcuddur. Bununla yanaşı, hər bir ölkə fərqli beynəlxalq layihələrə inteqrasiya etmişdir. Lakin regionda həll olunmamış münaqişələrin mövcudluğu konstruktiv dialoqun aparılması üçün məhdudiyyətlər yaratmışdır. Eyni zamanda, regionda baş verə biləcək hər hansı bir hərbi münaqişə super güclərin təhlükəsizlik maraqlarını təhdid etdiyindən onlar bu münaqişələrə qarışmırlar. 44 günlük Vətən müharibəsində Azərbaycanın Şanlı Qələbəsi Cənubi Qafqaz üzrə ssenarilərdə ciddi dəyişikliklər yaratdı. ABŞ-da Demokratlar Partiyasından namizədliyini irəli sürən hazırkı prezident Co Baydenin hakimiyyətdə olması və bu Partiyaya erməni diasporunun aşkar təzyiqi Azərbaycan üçün 44 günlük Vətən müharibəsində qazanılmış Zəfərin fonunda müsbət dəyişikliyin olacağı vədini

Ölkə başçısı İlham Əliyevin 2021-ci il, 13 aprel tarixində xarici ekspertlərin iştirakı ilə "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" mövzusunda keçirilən beynəlxalq konfransda səsləndirdiyi "*müharibə bizim üçün kimin-kim olduğunun aydın göstəricisi idi*" fikri 44 günlük Vətən müharibəsi dövründə Azərbaycana qarşı digər dövlətlərin birmənalı şəkildə mövqeyini müəyyən etdi[2].

Hazırkı qlobal çağırışların nisbətən fərqli istiqamətdə inkişaf etməsinə baxmayaraq, region respublikaları müstəqillik qazandıqdan sonra ABŞ və Aİ ilə münasibətlər genişlənməyə başlamışdır. Tarixin müxtəlif dövrlərində bir çox sahələr üzrə - siyasi, iqtisadi, mədəni, təhsil və s. fərqli yanaşmalar mövcud olmuşdur. Ümumiyyətlə, Qərb dövlətlərinin Cənubi Qafqaz regionu üzrə xarici siyasəti bu günə qədər bir çox alimlər, politoloqlar, tədqiqatçılar tərəfindən təhlil edilmişdir. Müasir dünya tarixinin formalaşmasında ABŞ və Aİ-nin rolu müstəsna

---

[1] The Armenia-Azerbaijan Crisis - Svante Cornell at Westminster Institute: [Electron resource] – April 25, 2021.
URL: https://www.silkroadstudies.org/silkroadstudies-news/item/13395-the-armenia-azerbaijan-crisis-svante-cornell-at-westminster-institute.html

[2]İlham Əliyev ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda iştirak edib: [Elektron resurs]/ Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı.- Bakı, 2021.
URL: https://president.az/articles/51088

əhəmiyyət daşıyır. Hər iki qlobal gücün Cənubi Qafqaz siyasətinin öyrənilməsi və araşdırılması siyasi prosesləri düzgün təhlil etmək, regionda güc balansını müəyyənləşdirmək və yaxın gələcəyə dair proqnoz vermək üçün mühüm əhəmiyyət kəsb edir.

Dünyada iqtisadi, siyasi, hərbi, mədəni və digər göstəricilər üzrə qabaqcıl mövqedə duran, aparıcı beynəlxalq təşkilatlarda həlledici səsə və nüfuza malik olan ABŞ və Aİ regionun nəhəng enerji layihələrinin əsas aparıcı tərəfidir. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün aradan qaldırılması Qərb dövlətləri ilə münasibətlərin inkişafında prioritet məsələlərdən biri olmuşdur. Ümumiyyətlə, XX əsrin sonları və XXI əsrin əvvəlləri beynəlxalq münasibətlər sistemində əsaslı dəyişikliklərin baş verməsi ilə səciyyələnir. Bu dəyişikliklərin birbaşa təsirinə məruz qalan Cənubi Qafqaz regionu üzrə Qərb dövlətlərinin siyasətinin öyrənilməsi və müqayisəli təhlil edilməsi mühüm əhəmiyyət kəsb edir.

Mövzunun tədqiqi prosesində istifadə edilən elmi araşdırmaları bir neçə qrupa bölmək olar:

- Qərb müəlliflərinin elmi-tədqiqat işləri, analitik yazıları;
- Cənubi Qafqaz (əsasən Azərbaycan və Gürcüstan) müəlliflərinin elmi-tədqiqat işləri;
- Araşdırılan mövzuya Rusiyadan olan müəlliflərin mövqeyini əks etdirən akademik yazılar.

Araşdırma prosesində bitərəf tədqiqatçı mövqeyi əsas götürülmüş, toplanmış materialların tarixi-müqayisəli təhlili aparılmış, faktor analizi metodundan istifadə edilərək obyektiv qiymət verilmişdir.

Cənubi Qafqaza dair mövzular Azərbaycan tədqiqatçılarından R. Sevdimalıyev, N.Məmmədov, E.Nəsirov, M.Qasımlı, O.Əfəndiyev, E.İsmayılov və başqalarının əsərlərində öz geniş əksini tapmışdır. M.Qasımlının "Azərbaycan Respublikasının diplomatiya tarixi" seriyasından hazırlanan və iki hissədən ibarət olan kitabında 1991-2003-cü illəri əhatə edən zaman çərçivəsində baş verən tarixi hadisələr geniş şəkildə əks olunmuşdur.[3] N.Məmmədovun "Geosiyasətə giriş" əsəri müasir siyasi proseslərin, geosiyasi faktorların gedişatı və təsir amillərinin öyrənilməsi üçün vacib mənbədir. R. Sevdimalıyevin

---

3 Qasımlı, M. C. Azərbaycan Respublikasının diplomatiya tarixi / Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003) Bakı- 2015

“Avropa İttifaqının Cənubi Qafqaz siyasətinin formalaşması və dinamikası” mövzusundakı elmi məqaləsində SSRİ dağıldıqdan sonra Avropa İttifaqının region üzrə siyasətinin inkişaf dinamikasına dair geniş şərh verilmişdir.[4] Qeyd olunmuşdur ki, ilk mərhələdə Aİ tərəfindən Cənubi Qafqaz ölkələrinə texniki dəstək göstərilmiş, daha sonra region dövlərləri ilə münasibətlər genişləndirilərək iqtisadi və siyasi əlaqələrin əsası qurulmuşdur.

Mövzuya dair elmi əsərləri olan Qərb müəlliflərindən T.de Val, Ç.Kinq, S.Kornel, A.Koen, A.Kuli, B.Şaffer, S.Çarap, S.Tolbot, L.Mitçel, A.Pol, F.Star və R.Suninin adlarını vurğulamaq olar.

Qeyd etmək lazımdır ki, bir sıra müəlliflər mövzuya ABŞ və Aİ-nin xarici siyasət tematikasından yanaşaraq təhlil aparmışlar. Z.Bjezinski, H.Kissincer, A.Karter, S.Kortunova, P.Podlesnoy, A.Fenenko, N.Semin, A.Arbatova, V.Batyuk, F.Zakariya və G.Trofimenkonun əsərlərində ABŞ xarici siyasətinin konseptual əsasları və institusional amillərinin geniş tədqiqi öz əksini tapmışdır.

Tanınmış politoloq Z.Bjezinski “Böyük şahmat taxtası” əsərində Avrasiya geostrategiyasında Cənubi Qafqazda ən böyük önəmi məhz Azərbaycana vermişdir.[5] “Müstəqil Azərbaycan Mərkəzi Asiyanın da enerji resurslarının Rusiya ərazisinin xaricindən keçməklə Qərbə çatdırılması üçün böyük magistraldır”- deyən alim Azərbaycanın geostrateji əhəmiyyətini qısa və lakonik şəkildə vurğulamışdır.

ABŞ və Aİ-nin Cənubi Qafqaz üzrə strategiyasının müxtəlif aspektlərini təhlil edən Rusiya müəlliflərindən S.Çernyavski, A.Quşera, S.Markedonov, N.Miller, V.Panin, R.Usmanova, N.Silayev, Q.Paşkovskaya, P.İvanov, M.Maxnaç və V.Zaxarovanın yazdığı elmi məqalələri xüsusilə vurğulamaq olar. Qeyd etmək lazımdır ki, Qərb müəllifləri dünyada və postsovet məkanında cərəyan edən siyasi proseslərə daha obyektiv yanaşırlar. Bunun əksinə olaraq, rusiyalı tədqiqatçıların bir çoxunun ambisiyalı, qeyri-obyektiv, açıq şəkildə qərəzli mövqedə olması müşahidə olunur.

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqat işinin obyektini ABŞ və Aİ-nin Cənubi Qafqaz ölkələri üzrə xarici siyasəti, predmetini

4 Sevdimaliyev, R. Formation and Dynamics of European Union’s Southern Caucasus Policy. Contemporary Azerbaijan in Social and Political Dimension.

5 Bjezinski, Z. Böyük şahmat taxtası. Amerikanın hökmranlığı və onun geostrateji imperativləri. ABŞ 1997

isə hər iki qlobal gücün region üzrə tətbiq etdiyi xarici siyasət kursunun xüsusiyyətləri, inkişaf tendensiyalarının müqayisəli təhlili və onlara təsir edən xarici amillər təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın başlıca məqsədi SSRİ dağıldıqdan sonra ABŞ və Aİ-nin Cənubi Qafqaz üzrə siyasət strategiyasını, qarşılıqlı münasibətlərinin inkişaf dinamikasını tədqiq etmək və region respublikaları üzrə ABŞ və Aİ-nin xarici siyasətinin müqayisəli təhlilini aparmaqdan ibarətdir.

Qarşıya qoyulan məqsədə nail olmaq üçün vəzifələr aşağıdakı kimi müəyyən edilmiş və yerinə yetirilmişdir.

- ABŞ-ın Cənubi Qafqaz üzrə xarici siyasət kursunun inkişafı və onun fundamental prinsiplərini təhlil etmək;
- ABŞ hökumətinin Cənubi Qafqaz siyasətinin əsas prioritetləri və onun geostrateji maraqlarını araşdırmaq;
- ABŞ-ın Cənubi Qafqaza yardım siyasətində inkişafa yardım proqramlarının əsas müddəalarını səciyyələndirmək;
- Aİ-Cənubi Qafqaz: müstəqilliyin ilk illərində ikitərəfli formatda diplomatik münasibətlərin formalaşması prosesini, siyasi kursun əsas istiqamətləri və inkişaf trendlərini tədqiq etmək;
- Regional güclərin Cənubi Qafqaz ölkələri ilə ikitərəfli formatda münasibətlərini araşdırmaq;
- Qlobal güclərin Azəarbaycan üzrə siyasi kursunu təhlil etmək;
- ABŞ və Aİ-nin Cənubi Qafqaz siyasətinin əsas komponentlərini müəyyən etməklə onlar arasında oxşar və fərqli cəhətləri göstərmək.

**Tədqiqat metodları**. Tədqiqatın aparılmasında tarixi hadisələrin müqayisəli təhlili, məzmun və analitik metoddan istifadə edilmişdir. Eyni zamanda tədqiqatın metodoloji əsasını siyasi elmlər, beynəlxalq münasibətlər sahəsində qəbul edilmiş tarixi təsvir, sintez, analiz, müqayisəli və sistemli siyasi təhlil, induksiya və deduksiya kimi ümummәntiqi metodlar, kontent-analiz, o cümlədən siyasi analizin müasir metodlarından olan ekspert qiymətləndirilməsi, keçirilən sorğuların nəticəsi təşkil edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

**-** Aİ və ABŞ-ın xarici siyasət strategiyasının reallaşdırılması dəyişən dünya sistemində güc və təsiretmə prosesinin əsas göstəricilərdən biridir.

- ABŞ xarici siyasətinin formalaşması prosesinə xarici faktorların, ekspert icmasının və lobbi qruplarının təsiri Cənubi Qafqaz regionuna münasibəti formalaşdışdırır ;
- Qlobal güclərin Azərbaycana qarşı mövqeyi yeni geosiyasi reallıqlar kontekstində nümayiş etdirilir;
- Tomas Karoterin paradiqmasına əsasən, demokratiyaya dəstək siyasətinin iki forması mövcuddur: siyasi və inkişaf. Birinci yanaşma bilavasitə siyasi aktorların özlərinə, siyasi partiyalara və ya siyasi yönümlü QHT-lərə yardım vasitəsilə həyata keçirilir. İkinci yanaşmada dövlətin iqtisadiyyatını inkişaf etdirmək amili idarəçilik islahatlarına ayrılan diqqətlə qarşı-qarşıya qoyularaq, sonda birincinin vacibliyi qənaətinə gəlinir.

**Tədqiqatın elmi yeniliyi:**

- Avropa İttifaqı və ABŞ-ın Cənubi Qafqaz üzrə siyasətinin əsas istiqamətlərinin müəyyən edilməsi və müqayisəli şəkildə tədqiq edilməsi.
- Avropa İttifaqı və ABŞ-ın Cənubi Qafqaz ölkələri üzrə xarici siyasətində başlıca fərqli cəhətlərdən biri kimi demokratiyanın təmin edilməsi istiqamətində müxtəlif yanaşma tərzinin olması açıqlanmışdır. ABŞ-ın xarici siyasət məsələləri üzrə tanınmış beynəlxalq eksperti Tomas Karoterin paradiqmasına əsasən, demokratiyaya dəstək siyasəti özünü iki formada əks etdirir: siyasi, digəri isə inkişaf yanaşmasıdır. Elmi araşdırmanın nəticəsi olaraq müəyyən edilmişdir ki, ABŞ-ın region üzrə siyasəti daha çox inkişaf yanaşmasına Avropa İttifaqının siyasəti isə siyasi meyilli olmuşdur.
- Aİ ABŞ-la müqayisədə regionda nisbətən gec görünməyə başlamışdır. Buna səbəb Aİ-nin daxili strukturunun müəyyən edilməsi prosesi idi. 1990-cı illərdə Aİ cəmi 12 üzv ölkədən ibarət idi. 1993-cü ildə Maastrixt Sazişi qüvvəyə mindikdən sonra Cənubi Qafqaz regionu üzrə daha aydın strategiyası üzərindən siyasət həyata keçirdiyi müşahidə olunmağa başladı.
- ABŞ və Avropa İttifaqının Azərbaycan üzrə siyasi kursunun digər Cənubi Qafqaz ölkələri ilə müqayisə edilərək təhlili
- Aİ və ABŞ-ın daxili struktur fərqlərinin olması xarici siyasət strategiyalarının formalaşmasına birbaşa təsir edən amil olaraq nəzərdən keçirilir.

- **Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Cənubi Qafqaz regionunu tədqiq edən mütəxəssislər, beynəlxalq və yerli ekspertlər üçün yararlılığı ilə müəyyən olunur. Tədqiqat işindən əldə olunan faktoloji nəticələrdən istifadə etməklə mövzu ilə bağlı yeni tədqiqatların aparılması və elmi-analitik məqalələrin yazılması mümkündür. Eyni zamanda tədqiqat işinin sənəd və materiallarından region üzrə ekspertlərin və mütəxəssislərin ABŞ və Aİ-nin Cənubi Qafqaz respublikaları, xüsusilə Azərbaycanla əlaqələrinin gələcək perspektivləri və inkişaf trendlərinə dair fikir mübadiləsi aparmaq üçün istifadə oluna bilər.

**Aprobasiya və tətbiqi**. Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun "Müasir siyasətin fəlsəfəsi" şöbəsində müzakirə olunmuş və müdafiəyə tövsiyə edilmişdir. İşin məzmunu və əsas müddəaları ilə beynəlxalq və respublika səviyyəli elmi-praktik konfranslarda müəllif tərəfindən məruzə olunmuş, ikisi xaricdə olmaqla 8 məqalə və tezis dərc edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun "Müasir siyasətin fəlsəfəsi" şöbəsi.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Tədqiqat işi "Giriş", üç fəsil, yeddi yarımfəsil, "Nəticə" və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş-18.305 işarə, I Fəsil-77.669, II Fəsil-63.090, III Fəsil-61.104, Nəticə-24.482 işarə olmaqla, 178 ədəbiyyat siyahısı ilə birlikdə 140 səhifədən (277.124 işarə) ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın məqsəd və vəzifələri, nəzəri əhəmiyyəti barədə məlumat verilmişdir. Nəticə bölümündə isə dissertasiya işinə yekun verilərək tədqiqat ərzində əldə edilən nəticələr təhlil edilmişdir.

Dissertasiyanın "**ABŞ-ın Cənubi Qafqaz üzrə xarici siyasət kursunun tarixi inkişafı və onun fundamental prinsipləri"** adlanan I fəsli üç yarımfəsildən ibarətdir. "**ABŞ-ın SSRİ-nin dağılması ilə müşayiət olunan Cənubi Qafqaz siyasətinin formalaşması" adlanan**

**birinci yarımfəsildə** ABŞ-ın SSRİ-nin dağılması ilə müşayiət olunan Cənubi Qafqaz siyasətinin formalaşmasından bəhs edilir. XX əsrdə Cənubi Qafqaz dövlətləri ikinci dəfə 1991-ci ildə müstəqillik əldə etdikdən sonra ABŞ hər bir ölkənin müstəqilliyini tanıdı, səfirliklər açıldı, ilk ikitərəfli sənədlər imzalandı. 1991-1992-ci illərdə regionda mövcud olan gərgin vəziyyəti nəzərə alaraq Cənubi Qafqazla daha sıx əlaqələrin qurulmasına tərəddüd edilirdi[6]. Lakin sabiq prezident Bill Klintonun administrasiyası dövründə region üzrə qlobal xarici siyasət strategiyası hazırlandı və keçmiş sovet respublikaları ilə sıx qarşılıqlı münasibətlər quruldu.

Ümumiyyətlə, "soyuq müharibə" başa çatdıqdan sonra ABŞ-ın Cənubi Qafqaz siyasəti bir neçə mərhələdən keçmişdir[7]. Belə ki, XX əsrin 90-cı illərinin əvvəllərində ABŞ-ın postsovet məkanı ilə bağlı xarici siyasət strategiyasında Rusiya üzərindən siyasət kursu prioritet təşkil edirdi. Postsovet məkanının demokratikləşməsi üçün yaradılan *"Russia first"* ("Birinci - Rusiya") doktrinasına əsasən, Qərbə inteqrasiyanın məhz Rusiyadan başlanması və yeni yaranan ölkələrə nümunə olması məqsədəuyğun sayılırdı. Lakin Rusiya ilə münasibətlərin pisləşməsi və regionun enerji resurslarına ABŞ şirkətlərinin artan marağı 1994-1995-ci illərdən başlayaraq Vaşinqtonu "Birinci - Rusiya" siyasət strategiyasını dəyişməyə sövq etdi[8]. Həmin dövrdən sonra ABŞ yeni müstəqillik qazanan keçmiş SSRİ respublikalarının hər biri ilə münasibətləri inkişaf etdirməyə başladı.

1990-cı illərin əvvəllərində ABŞ Sovet İttifaqının bərpasına yol verməmək üçün Cənubi Qafqaz respublikalarının müstəqilliyinə və suverenliyinə dəstək verməklə yanaşı, iqtisadi cəhətdən çətin dövr yaşayan ölkələrə humanitar yardım edir və regionla daha sıx əlaqələr qurmağa çalışırdı. ABŞ Konqresinin qəbul etdiyi "Azadlığa Dəstək Aktı" *(postsovet məkanında yerləşən respublikalarda demokratiyanı,*

---

[6] Prezident Kitabxanası/ Dövlət müstəqilliyinin bərpası və qorunub saxlanması - Bakı, - 2016.

[7] Aslanli, A. Caucasus in the Global Struggle in the Last 25 Years // Caucasus International, - 2017, Vol 7, (1)

[8] Rowl, E., Robert, N. A. Cold Eye on Russia: [Electronic resource] / March 28, 2019.
URL: https://www.washingtonpost.com/archive/opinions/1994/03/28/a-cold-eye-on-russia/adbae65b-1a77-497b-bd94-

*bazar iqtisadiyyatını inkişaf etdirmək üçün onlara gostərilən maliyyə, texniki və s. yardım layihələrini sistemləşdirən qanun)* maliyyə yardımı prosesinin başlanğıcı olmuşdur. 1992-ci ildə qəbul edilən bu akta əsasən, keçmiş sovet respublikalarına dövlət, qeyri-hökumət və özəl şirkətlər vasitəsilə yardım edilirdi. ABŞ-dakı erməni lobbisinin səyi nəticəsində "Azadlığa Dəstək Aktı"na Azərbaycana qarşı 907-ci düzəliş əlavə edildi. Bu akta əsasən, Azərbaycana ABŞ Dövlət Departamenti tərəfindən humanitar yardım olunması qadağan edildi. Ümumilikdə, müstəqilliyin gücləndirilməsi regionda Rusiyanın gücünün azaldılması və keçmiş qlobal hakimiyyətin məhdudlaşdırılması vasitəsi kimi nəzərdən keçirilirdi.

1990-cı ilin əvvəllərində Cənubi Qafqazda sovet iqtisadiyyatından qalma problemlər və regionda cərəyan edən konfliktlər nəticəsində iqtisadiyyatın tənəzzülə uğraması neft və qaz sənayesini də ağır vəziyyətə salmışdı. Ermənistanın Azərbaycan torpaqlarına hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20%-ni itirmiş, təqribən 1 milyona yaxın qaçqın və məcburi köçkünü qarşılamaq və onları məskunlaşdırmaq məcburiyyəti qarşısında qalmışdı[9]. Belə bir çətin dövrdə ölkə rəhbərliyinə qayıtmış Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi praqmatik siyasət nəticəsində siyasi stabillik bərpa olundu və gələcək iqtisadi inkişafın əsası qoyuldu

**"ABŞ hökumətinin Cənubi Qafqaz siyasətinin əsas prioritetləri və onun geostrateji maraqları" adlanan ikinci yarımfəsil** isə qlobal siyasətdə cərəyan edən hadisələr fonunda ABŞ-ın Cənubi Qafqaz siyasəti son 30 il ərzində müxtəlif tarixi mərhələlərdən keçərək fərqli yanaşmalar kontekstindən təhlil edilir. Sabiq prezident C.Karterin müşaviri, məşhur alim Zbiqnev Bjezinski yazılarında Azərbaycanın adını xüsusi vurğulayır və Avrasiyanın ən mühüm strateji ölkələrindən biri kimi qeyd edirdi. 2001-ci ildə Corc Buşun ABŞ prezidenti seçilməsi ilə region üzrə xarici siyasətdə iqtisadi faktordan daha çox geostrateji faktora üstünlük verildi. Qeyd etdiyimiz kimi, ABŞ-da 11 sentyabr 2001-ci il tarixdə baş verən terror hadisəsinin nəticəsi olaraq yeni administrasiya enerji layihələrindən daha çox regionun strateji cəhətdən əhəmiyyətli olmasına önəm verdi. Terror

---

[9]Солтанов, Э. Энергетическая политика Азербайджана и Государственный суверенитет: Балансируя между севером и югом, направляясь на запад/ Э. Солтанов, - Баку; 2012. - 81 с.

hadisəsinin cavabı olaraq ABŞ hərbi qüvvələri NATO ilə birgə Əfqanıstanda hərbi əməliyyata başladı[10]. 2001-ci il dekabrın 14-də ABŞ-ın müdafiə naziri Donald Ramsfeld Bakıya səfər etdi. Aparılan danışıqların nəticəsi olaraq Azərbaycan terrora qarşı mübarizə üçün öz hava məkanından istifadə olunmasına icazə verirdi. Bir il sonra, 2002-ci ildə ABŞ hökuməti "Azadlığa dəstək aktı"na 907-ci düzəlişi bir il müddətinə dondurdu. Sonrakı illərdə bu proses hər il təkrar olunur.
Bill Klinton və Corc Buşun administrasiyası dövründə ABŞ-ın Cənubi Qafqazda regional münaqişələrin həll edilməsi üçün aktiv fəaliyyət göstərməsinə baxmayaraq, nəticə əldə edilməmişdir.[11]

Ümumiyyətlə, 1990-2000-ci illər ərzində ABŞ-ın Cənubi Qafqaz üzrə ardıcıl və səmərəli xarici siyasət strategiyası olduğunu vurğulamaq olar[12]. Belə ki, daha öncə heç bir əlaqəsi, təcrübəsi olmadığı regionla davamlı və ardıcıl xarici siyasət strategiyası yürütməklə ABŞ qısa müddət ərzində Cənubi Qafqaz ölkələri ilə siyasi, iqtisadi və diplomatik əlaqələr qura bilmişdir. Corc Buş administrasiyası dövründə terrorizmlə mübarizə region üzrə siyasəti gücləndirsə də, struktur olaraq dəyişməmişdir. Əlbəttə, hər bir ölkənin xarici siyasət strategiyasında qarşıya qoyulan hədəfləri tam müəyyən edə bilmək qeyri-mümkün olduğundan xarici siyasətin effektivliyini açıqlamaq bir qədər çətinlik yaradır. Lakin 2000-ci ilə qədər ABŞ-ın xarici siyasət strategiyasının əsasını SSRİ dağıldıqdan öncə heç bir əlaqəsi olmadığı regiona geosiyasi təsiretmə gücünə malik olmaq, həmçinin siyasi, iqtisadi, diplomatik əlaqələr yaratmaq, Rusiyadan aslılığın qarşısını almaq təşkil edirdisə, Corc Buş və Bill Klintonun prezidentlik dövründə siyasətin uğurla nəticələndiyini qeyd etmək olar[13].

ABŞ-ın region üzrə maraqları müxtəlif dönəmlərdə fərqli olsa da, ümumi olaraq aşağıda qeyd olunan siyasət strategiyası üstünlük

[10] Coffey, L. US – Azerbaijan Relations: Challenges and Perspectives: [Electronic resource] /August 28, 2017.
URL: http://www.caspianpolicy.org/news/us-azerbaijan-relations-challenges-and-perspectives/

[11] Olcot, M.B. U.S. Policy in the South Caucasus // The Quarterly Journal, - p.60-63.

[12] Bluth, C. US foreign policy in the Caucasus and Central Asia. – London: I.B. Tauris, - 2014. - 288 p.

[13] Zarifian, J. U.S. Foreign Policy in the 1990s and 2000s, and the Case of the South Caucasus (Armenia, Azerbaijan, Georgia) // OpenEdition Journals, - 2015, - p. 14.

təşkil etmişdir: təhlükə mənbəyi olan Rusiya və İranı əhatəyə almaq; terror əleyhinə mübarizə aparmaq; regionu Orta Asiyaya çıxış olaraq görmək; alternativ bazar qismində regiondan yararlanmaq; neft-qaz yataqları ilə bağlı layihələrdə iştirak etmək, regionun zəngin təbii resurslarından faydalanmaq; regionun karbohidrogen ehtiyatlarının xarici bazarlara çıxarılmasını təmin etmək, həmçinin qonşu ölkələrdən asılılığı aradan qaldırmaq üçün ixrac yolu müxtəlifliyi yaratmaq.

ABŞ-ın Cənubi Qafqazda üç başlıca marağı kimi demokratiya, insan hüquqları, təhlükəsizlik və enerji faktorunu qeyd etmək olar. Lakin son 30 il ərzində prezident administrasiyalarının dəyişməsindən asılı olaraq siyasətdə prioritetlər də dəyişmişdir. Klinton administrasiyası dövründə regionun enerji resurslarına maraq üstünlük təşkil etmişdir. Xəzər hövzəsinin enerji resurslarını Qərb bazarlarına çıxarmaq üçün "Əsrin müqaviləsi" imzalanmışdır. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə bağlanmış bu müqavilə Azərbaycan xalqının rifahının yaxşılaşdırılmasında yeni dövrün əsasını qoydu. Corc Buş administrasiyası dövründə 11 sentyabr, 2001-ci ildə baş verən terror hadisəsindən sonra xarici siyasət gündəmində təhlükəsizliyin təmin olunması məsələləri dururdu. Barak Obama və Donald Tramp administrasiyası dövründə isə ABŞ-ın region üzrə marağının kifayət qədər azaldığını müşahidə etmək mümkündür. Lakin baş verən siyasi proseslər fonunda ABŞ Prezidenti Co Bayden administrasiyasının region üzrə marağının artmasını xüsusilə vurğulamaq olar. ABŞ Prezidentinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubunda qeyd olunmuşdur: "Birləşmiş Ştatlarla Azərbaycan arasında diplomatik münasibətlərin 30 illiyidir. Bu ildönümünü qeyd etdiyimiz bir zamanda Administrasiyam Cənubi Qafqazda demokratiya, sülh və tərəqqini dəstəkləməyə davam edəcəkdir. Biz, həmçinin ortaq təhlükəsizlik narahatlıqlarını həll etmək, regional barışığa təşviq etmək və iqtisadi əməkdaşlıq üçün yeni imkanları araşdırmaq məqsədilə Azərbaycanla birgə işləyəcəyik."

**"ABŞ-ın Cənubi Qafqaz siyasəti: inkişafa yardım proqramları" adlanan üçüncü yarımfəsildə** Cənubi Qafqaz respublikaları müstəqillik qazandığı dövrdən indiyə qədər ABŞ Dövlət Departamenti tərəfindən ən çox yardım göstərilən dövlət Gürcüstan olmuşdur. 1992-ci ildən başlayaraq 2016-cı ilə qədərki dövrdə ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (*USAID*) Gürcüstana 1.5 milyard,

Azərbaycana 1.3 milyard, Ermənistana isə 1 milyard dollar məbləğində yardım etmişdir. USAID-in yardım proqramları kənd təssərüffatı sektorunun inkişafına, iqtisadi imkanların artırılmasına, vətəndaş cəmiyyətinin gücləndirilməsinə töhfə verir. 1991-ci ildən USAİD Azərbaycana iqtisadi və demokratik islahatlara, humanitar yardım və səhiyyə sektoruna 417 milyon ABŞ dollarından artıq vəsait xərcləyib.[14]

Barak Obamanın prezidentliyi dövründə xarici siyasətin daha çox Cənub-Şərqi Asiya və bəzi vacib məsələlərə yönəldiyini, ABŞ-ın Azərbaycan, Gürcüstan və Ermənistanla bir çox proqramları və əməkdaşlığı tədricən azaltması açıq şəkildə müşahidə olunurdu. 2009-cu ilin yanvar ayında Barak Obama hakimiyyətə gəldiyi dövrdə Rusiya-ABŞ münasibətlərinin ən gərgin dövrü yaşanırdı[15].Rusiya-Gürcüstan müharibəsi "soyuq müharibə"dən sonra ilk dəfə ABŞ-Rusiya münasibətlərinin gərginləşməsinə səbəb olmuşdu. Həmin dövrdə Barak Obamanın Rusiyaya qarşı tətbiq etdiyi “reset” siyasətini xarici siyasət kursunun əsas istiqaməti kimi qeyd etmək olar. ABŞ-ın müdafiə nazirinin siyasi məsələlər üzrə müavini Cim Miller "Foreign Policy" ("Xarici siyasət") jurnalına müsahibəsində bildirmişdi ki, “reset” siyasəti ilə iki mühüm məsələdə Rusiyanın dəstəyinə nail olunub: Əfqanıstanda hərbçilərin təchizatı üçün yolların açılmasına və İrana qarşı ən ağır iqtisadi sanksiyaların tətbiq edilməsinə. Lakin ikitərəfli münasibətlərin qaydaya düşməsi qısamüddətli olmuşdur[16].

ABŞ-ın Cənubi Qafqazla bağlı strategiyası müsbət tendensiyada inkişaf edirdi, lakin 2008-ci ilin avqust hadisələri (Rusiya-Gürcüstan müharibəsi) onun Cənubi Qafqazdakı, bir müddət sonra isə Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılması üçün atdığı addımlar Azərbaycandakı imicinə təsir göstərdi[17]. Rusiyanın region üzrə

---

[14] About Azerbaijan: [Electronic resource]-January 24, 2022. https://www.usaid.gov/az/azerbaijan

[15] Cohen, A. Time to Revise Obama’s Russian “Reset” Policy: [Electronic resource] - October 26, 2010. URL:https://www.heritage.org/europe/report/time-revise-obamas-russian-reset-policy

[16] Cohen, A. News Flash for the Pentagon: U.S.–Russian “Reset” Failed: [Electronic resource] / September 20, 2012.
URL: https://www.dailysignal.com/2012/09/20/news-flash-for-the-pentagon-u-s-russian-reset-failed/

[17] Nixey, J. The South Caucasus: drama on three stages. – London: Chatham House, - 2010. – 142 p.

ambisiyaları fonunda 2010-cu ildən ABŞ-ın Cənubi Qafqazda imicini bərpa etmək və mövqelərini qorumaq üçün çalışdığını qeyd etmək olar. Azərbaycan-ABŞ münasibətləri bir qədər yaxşılaşsa da, Obama hakimiyyətinin ermənipərəst mövqeyi, Gürcüstanda isə rusiyapərəst İvanişvilinin baş nazir seçilməsi və ABŞ-ın daxili, iqtisadi problemlərinə daha çox önəm verməsi Cənubi Qafqaza marağının zəifləməsi dövrü kimi qeyd edilə bilər.[18]

Hazırki dövrdə ABŞ və Azərbaycan arasındakı əlaqələr bir çox sahələr üzrə uğurla inkişaf etdirilir. Son 30 il ərzində tərəflər arasında iqtisadiyyat, enerji, təhlükəsizlik sahələri üzrə tərəfdaşlıq əlaqələri qurulmuşdur. ABŞ regionda sabitliyin, rifahın qorunmasının sadiq tərəfdaşıdır.

Dissertasiyanın **"Avropa İttifaqının Cənubi Qafqaz siyasəti: Tarixi aspektləri, əsas istiqamətləri və inkişaf trendləri"** adlanan II fəsli iki yarımfəsildən ibarətdir. **"Aİ-Cənubi Qafqaz: müstəqilliyin ilk illərində ikitərəfli formatda diplomatik münasibətlərin formalaşması"** adlanan birinci yarımfəsildə Aİ-nin Cənubi Qafqaz siyasətinin formalaşmasından bəhs edilir. 1992-ci il Maastrixt Sazişindən sonra Cənubi Qafqaz respublikaları Aİ-nin daha geniş maraq dairəsinə daxil oldular. 1990-cı illərin ortalarında Aİ cəmi 12 üzv ölkədən ibarət idi. Həmin dövrdə əlaqələr əsasən bölgəyə müxtəlif proqramlar vasitəsilə yardım göstərilməsi, infrastrukturun inkişaf etdirilməsi, azad bazar iqtisadiyyatına keçidə dəstək və s. istiqamətlərdə qurulmuşdu. Aİ keçid dövründə Cənubi Qafqaz respublikalarına texniki və humanitar yardım göstərən əsas donorlardan biri idi. Sonrakı dövrdə isə Aİ diqqəti əsasən institusional sahədə islahatların aparılmasına yönəltmişdir[19].

Region dövlətləri ilə Aİ arasında ilkin əlaqələrin qurulması 1991-ci ildə TACIS (Technical Assistance for the Commonwealth of Independent States - Müstəqil Dövlətlər Birliyinə Texniki Yardım)

---

[18] Raufoğlu, Ə. Təhlil: Azərbaycan-ABŞ münasibətləri nə yerdədir?: [Elektron resurs] / BBC Azərbaycan xidməti. – Bakı, 2012. URL:https://www.bbc.com/azeri/azerbaijan/2012/01/120130_us_azerbaijan_relations_2012

[19] Paul, A. The EU and the South Caucasus 25 Years Since Independence: [Electronic resource] / October 25, 2016. URL:https://eu.boell.org/en/2016/11/25/eu-and-south-caucasus-25-years-independence

proqramı çərçivəsində həyata keçirilmişdir. Münasibətlərin hüquqi əsası isə 1996-cı ildə imzalanan və 1999-cu ildə qüvvəyə minən Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi (TƏS) ilə qoyulmuşdur. TƏS-in məzmunu Orta Asiya ölkələrinə təqdim olunan sənədlə demək olar ki, eyni idi. Aİ və Cənubi Qafqaz respublikaları arasında münasibətlər əsasən enerji, nəqliyyat və təhlükəsizlik sahələri üzrə inkişaf etdirilmişdir. Cənubi Qafqaz respublikaları ilə 2004-cü ildə Avropa Qonşuluq Siyasəti (AQS) sazişi imzalanmışdır[20]. 2009-cu ildə imzalanan Şərq Tərəfdaşlığı (ŞT) sazişi ilə qarşılıqlı əlaqələrin inkişafında növbəti mərhələ başlamışdır.

Region dövlətlərinin Aİ-nin təşəbbüsü ilə müxtəlif proqramlara cəlb olunmasını onların Avropaya inteqrasıyasının mühüm amili kimi dəyərləndirmək olar. Şərq Tərəfdaşlığı proqramı əsasında 2015-ci ildə keçirilən sammitdə dörd prioritet sahə üzrə-daha güclü iqtisadiyyat, idarəçilik, cəmiyyət və beynəlxalq əlaqələr, prioritet olaraq əməkdaşlıq həyata keçirilir. Qeyd etmək lazımdır ki, Şərq Tərəfdaşlığı (ŞT) Avropa Qonşuluq Siyasəti (AQS) proqramına əsasən çoxtərəfli əməkdaşlıq formatına malik xüsusi şərq formatı olaraq yaradılıb. Aİ ilə Şərq Tərəfdaşlığına üzv olan altı ölkə arasında münasibətlərin çərçivəsini Assosiasiya Sazişi, Assosiasiya gündəlikləri eləcə də Tərəfdaşlıq prioritetləri kimi ikitərəfli anlaşmalar tənzimləyir. Aİ ilə Gürcüstan, Ukrayna və Moldova arasında 2014-cü ildə imzalanan Assosiasiya sazişləri, Dərin və Hərtərəfli Azad Ticarət Zonalarına dair sazişlər ikitərəfli münasibətləri yeni müstəviyə qaldırmışdır. Tərəfdaş ölkələr 2014-2017-ci ilə kimi Aİ-dən 2.8 milyard avro dəyərində maliyyə dəstəyindən yararlanıblar.

Ümumiyyətlə, Cənubi Qafqaz regionunda sabitliyin, təhlükəsizliyin, demokratiyanın, insan hüquqlarının, enerji təhlükəsizliyinin təmin edilməsi məsələlərini Aİ-nin region üzrə xarici siyasətinin prioritet istiqamətləri kimi vurğulamaq olar. Regionda müxtəlif sahələrin inkişaf etdirilməsinə dəstək olmaqla Aİ həm də regiondan Avropa ölkələrinə qanunsuz miqrasiyanın qarşısını almağa

---

[20] Lehne, S. Time to Reset the European Neighborhood Policy: [Electronic resource] / February 3, 2014. URL:https://carnegieendowment.org/files/time_reset_enp.pdf

çalışır[21]. 2007-ci ildə aparılan sorğuya əsasən, Aİ vətəndaşlarının 62%-i inanır ki, qonşu ölkələrlə sıx əməkdaşlıq qeyri-qanuni miqrasiyanın qarşısını alır. Əhalinin 67%-i isə inanır ki, regionda sabitliyin qorunması Avropada da təhlükəsizliyin təminatçısıdır. Cənubi Qafqaz respublikalarının ən yüksək ticarət dövriyyəsi əsasən Aİ və Rusiya arasındadır[22]. Lakin 2006-cı ildə Gürcüstana Rusiya tərəfindən embarqo qoyulduqdan sonra ölkədə ixracatı artırmaq məqsədilə ticarət əlaqələrinin şaxələndirilməsinə başlanıldı. Rusiya ilə Gürcüstan arasında ticarət əlaqələri 2012-ci ildə yenidən bərpa olundu. Gürcüstanın ticarət dövriyyəsinin təxminən 32,6%-i Aİ, 17,2%-i Türkiyə və 8,1%-i isə Rusiyanın payına düşür. Gürcüstanın Assosiasiya Sazişinə üzv olması ticarət dövriyyəsinin artmasına takan verdi [23]. 2014-cü ildən 2015-ci ilədək Gürcüstanın Aİ-yə ixracatı 12,5% artaraq 660 milyon avrodan 742 milyon avroya qədər yüksəlmişdir. Aİ-nin Gürcüstana ixracatı isə nisbətən azalmışdır. Rusiyanın Cənubi Osetiya və Abxaziyada separatçı mövqeyi və 2008-ci ildə baş verən Rusiya-Gürcüstan müharibəsindən sonra Gürcüstan "Avropameyilli" siyasətini daha aydın şəkildə ifadə etməyə başlamışdır. Ümumiyyətlə, Aİ Gürcüstanın islahatlar gündəmini maliyyə və texniki əməkdaşlıqla dəstəkləyir.

Azərbaycan Aİ-nin enerji təhlükəsizliyinin 5%-ni təmin edir və Xəzərin enerji resurslarının Cənub Qaz Dəhlizi vasitəsilə Avropa bazarlarına çıxarılmasında mühüm rol oynayır. Azərbaycan zəngin enerji resursları sayəsində regionda yeganə ölkədir ki, Aİ ilə müsbət ticarət balansına malikdir[24]. Azərbaycan Avropanın mühüm enerji

---

[21] Sevdimaliyev, R. Formation and Dynamics of European Union's Southern Caucasus Policy. Contemporary Azerbaijan in Social and Political Dimension. – Baku, – 2016. - 114 p.

[22] European Union, Trade with Georgia Trade flows by HS section: [Electronic resource]/ January 31, 2018.
URL: http://ec.europa.eu/trade/policy/countries-and-regions/countries/georgia/

[23] Chkhikvadze, V. The South Caucasus and the EU – Different Paths for Each Country: [Electronic resource] / November 18, 2016.
URL: https://eu.boell.org/en/2016/11/18/south-caucasus-and-eu-different-paths-each-country

[24] Rogin, J. Inside the other Georgian lobbying effort in Washington:[Electronic book] /January 30, 2012.

tərəfdaşıdır: tərəflər arasında imzalanan Cənub Qaz Dəhlizi layihəsi 7 ölkəni və 11 şirkəti özündə əhatə edən, dünyanın neft-qaz sənayesində ən iddialı layihələrdən biridir. Layihə çərçivəsində "Şahdəniz" yatağından hasil edilən təbii qaz Trans-Anadolu Boru Kəməri (TANAP) vasitəsilə Türkiyə ərazisi boyunca və Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə isə Yunanıstan və Albaniya ərazisindən keçməklə İtaliyaya nəql ediləcək. Xəzər dənizinin Azərbaycan sektorunda olan nəhəng "Şahdəniz 2" yatağından ilkin olaraq Avropa bazarına 2020-ci ilə kimi illik 10 milyard $m^3$, daha sonra əlavə olaraq Türkiyəyə illik 6 milyard $m^3$ təbii qazın ixrac olunması nəzərdə tutulmuşdur[25].

2014-2017-ci illər üzrə prioritet sahələr olaraq region və kənd bölgələrinin inkişafı, iqtisadiyyatın diversifikasiyası, balanslı və dayanıqlı inkişafı təşviq edən cəhdlərin dəstəklənməsi, ədliyyə sektoru üzrə islahatların aparılması, münaqişələrin həllinin alternativ üsulunun müəyyən edilməsi, hüquqi yardım təminatı, ədliyyə sisteminə rahat müraciətin təmin olunması, antikorrupsiya addımlarının dəstəklənməsi, təhsilin inkişafı, Aİ standartları və təcrübəsi əsasında müvafiq peşə və ali təhsil səviyyəsində keyfiyyətin artırılması və s.-ni qeyd etmək olar. Azərbaycan təbii qazının 2018-ci ildə TANAP boru kəməri ilə Türkiyəyə, 2020-ci ildə isə TAP layihəsi ilə Avropaya tədarükünə başlanılıb.

**"Aİ-nin Cənubi Qafqaz siyasətinin müasir dövrdəki əsas konturları: regionda mövcud olan münaqişələrin həlli və əməkdaşlıq üzrə birgə layihələrin icrası"** adlanan ikinci yarımfəsildə qarşılıqlı əlaqələrin müasir dövrdə inkişaf dinamikasından bəhs edilir. 2013-cü ildə Cənubi Qafqaz dövlətlərinin hər birinin Aİ-nin region siyasətinə müxtəlif mövqedən yanaşdıqları bir daha bəlli oldu. Belə ki, Azərbaycan Aİ tərəfindən təklif edilən Assosiasiya Sazişini imzalamaqdan imtina edərək Aİ ilə daha çox ikitərəfli münasibətləri tənzimləyən Strateji Tərəfdaşlıq Sazişinin imzalanmasını təklif etdi.

---

URL: http://foreignpolicy.com/2012/01/30/inside-the-other-georgian-lobbying-effort-in-washington/

[25] Shah Deniz major sales agreements with European gas purchasers concluded: [Electronic resource] / September 13, 2013. URL:https://www.bp.com/en_az/caspian/operationsprojects/Shahdeniz/SouthernCorridor.html

Ermənistan Aİ ilə Assosiasiya Sazişi və “Dərin və Hərtərəfli Azad Ticarət Zonası” (DCFTA) ətrafında üç il danışıqlar aparmasına baxmayaraq, Rusiyanın siyasi və iqtisadi təzyiqlərinin nəticəsi olaraq sonda həmin Sazişi imzalamaqdan imtina etdi və Avrasiya İqtisadi Birliyinə üzv oldu[26]. Lakin ölkədəki gərgin iqtisadi vəziyyətə görə 2017-ci ilin iyun ayında yenidən Aİ ilə danışıqlara başlayan Ermənistan noyabrın 25-də Aİ ilə “Hərtərəfli və genişləndirilmiş tərəfdaşlıq razılaşması”nı (CEPA) imzaladı. Əlbəttə, Ermənistanın atdığı bu addım Rusiya tərəfindən birmənalı qarşılanmadı.

Gürcüstana gəldikdə isə, demək olar ki, Avropaya ən çox inteqrasiya edən Cənubi Qafqaz respublikasıdır[27]. Aİ ilə Assosasiya Sazişi və DCFTA-nın imzalanması ilk gündən müsbət qarşılandı və 2016-cı ildən Saziş qüvvəyə mindi. 2015-ci ildə Azərbaycan ikitərəfli münasibətlərin hüquqi çərçivəsini yeniləyəcək "Strateji tərəfdaşlıq haqqında Saziş" layihəsini Aİ-yə təqdim etmişdir. Bu saziş 1996-cı ildə imzalanmış TƏS-i əvəz edəcək. Azərbaycanın Aİ-dəki səfiri Fuad İsgəndərov bununla bağlı bildirmişdir: “Bizim münasibətlərin gələcəyinə dair fikrimiz ondan ibarətdir ki, bu münasibətlər strateji səciyyə daşıyan və gələcəyə köklənən bərabərhüquqlu əlaqələr olmalıdır”.

Son 30 il ərzində Azərbaycanla Aİ arasında münasibətlər daim pozitiv və stabil axarda inkişaf etməmişdir. Azərbaycanın xarici siyasət strategiyasının əsas istiqamət və prioritetlərindən biri ölkənin ərazi bütövlüyü çərçivəsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün həll edilməsi olmuşdur. 1994-cü ildə ATƏM-in Budapeşt Sammitində Minsk Qrupunun həmsədrlik institutu təsis edilmişdir. ABŞ, Rusiya və Fransa qrupun həmsədrləri olaraq Ermənistanın Azərbaycan torpaqlarına hərbi təcavüzünün aradan qaldırılmasına dəstək verməli idilər. 2008-ci ildə Rusiya və Gürcüstan arasında baş verən beşgünlük müharibə Cənubi Qafqazda siyasi vəziyyəti bir qədər dəyişdirdi. 2014-cü ildə Ukraynada baş verən hadisələrə görə Rusiyaya

---

[26] Wallander, C. Russian-US Relations in the US Relations in the Post Post-Cold War. – Harvard University: PONARS Policy Memo 70, - 1999. - 6 p.

[27] Paul, A. The EU and the South Caucasus 25 Years Since Independence: [Electronic resourse] / October 25, 2016. URL:https://eu.boell.org/en/2016/11/25/eu-and-south-caucasus-25-years-independence

qarşı sanksiyalar tətbiq olundu, lakin Qarabağ münaqişəsinə görə Ermənistana qarşı təcavüzkar ölkə kimi heç bir sanksiya tətbiq olunmayıb ki, bu da ikili standartların bir nəticəsidir. Əlbəttə, sanksiyalarla münaqişənin həllinə tezliklə nail olunmasa da, Ermənistana təcavüzkar ölkə kimi təzyiq göstərilməsi problemin həllini tezləşdirə bilərdi. Artıq Avropa Azərbaycanın timsalında eyni siyasətin bütün ölkələrə tətbiq oluna bilməyəcəyinin şahidi olmuşdur.

**"ABŞ və Avropa İttifaqının Cənubi Qafqaz siyasətinin oxşar və fərqli cəhətləri" adlanan III fəsil iki yarımfəsildən ibarətdir. "Regional güclərin Cənubi Qafqaz ölkələri ilə ikitərəfli formatda münasibətləri" adlanan birinci yarımfəsil**də Rusiya, İran və Türkiyə kimi nəhəng dövlətlərin Cənubi Qafqaz regionu üzrə xarici siyasəti şərh edilir. İran SSRİ-nin dağılma prosesinə çox ehtiyatla yanaşaraq, Cənubi Qafqaz respublikalarını müstəqilliklərini elan etməyə tələsməməyə çağırmışdı. Qarşılıqlı maraqlar əsasında İran Gürcüstanla müqayisədə Azərbaycan və Ermənistanla əlaqələri daha çox inkişaf etdirmişdir[28]. Lakin 1992-1993-cü illərdə İran-Ermənistan münasibətləri müsbət tendensiya üzrə inkişaf etsə də, Azərbaycanla əlaqələr gərginləşmişdir. Gərgin münasibətlər İranın strateji seçimi və Azərbaycanın sabiq prezidenti Ə.Elçibəyin siyasəti nəticəsində yaranmışdır. İran-ABŞ və İran-İsrail əlaqələrində yaşanan gərginlik İran-Azərbaycan münasibətlərinə də öz təsirini göstərmişdir. 2013-cü ildə iki ölkə arasında yaşanan gərginliyi aradan qaldırmaq üçün Prezident Administrasiyasının nümayəndə heyəti, daha sonra Qafqaz Müsəlmanları İdarəsinin rəhbəri Allahşükür Paşazadə İrana səfər etmişdir. Bu səfərlər və aparılan danışıqlar nəticəsində münasibətlərdəki gərginlik bir qədər stabilləşmişdir.

Qeyd edək ki, İran Ermənistanın Azərbaycan torpaqlarına təcavüz etdiyi bir dövrdə bu ölkə ilə əlaqələrini inkişaf etdirmişdir. Hal-hazırda da hər iki ölkə arasında bir çox sahələrdə, o cümlədən təbii qaz, elektrik mərkəzli enerji və s. əməkdaşlıq davam etdirilir. Gürcüstanın ABŞ ilə sıx əlaqələri olduğundan İran bu ölkə ilə mühüm hesab etdiyi

---

[28] Tehranda Azərbaycan-İran münasibətlərinin vəziyyəti və perspektivlərinə dair müzakirələr :[Elektron resurs]/Xalq qəzeti.-Bakı,2013
URL: http://xalqqazeti.com/az/news/politics/33501

sahələr üzrə əməkdaşlıq etmir[29]. 1992-ci ildə ilk dəfə Rusiyanın xarici işlər naziri Kozırevin öz yazısında işlətdiyi "yaxın ətraf" ifadəsi 1993-cü ildə Rusiya Prezidenti Boris Yeltsin tərəfindən çıxışlarının birində ifadə edilmişdi. "Rusiya yaxın ətrafda yaşayan vətəndaşlarını qorumaq üçün daha fəal olacaq" fikri qısa müddət ərzində rəsmi səviyyədə təsirli olmağa başladı. "Yaxın ətraf" eyni zamanda keçmiş SSRİ respublikalarının iqtisadi və hərbi baxımdan federasiyada birləşməsini ifadə edirdi. Rusiya 1990-cı illərin ortalarına qədər ABŞ-ın regionda baş verən proseslərdə bir o qədər də iştirak etməməsindən istifadə edərək keçmişdə qalan mövqelərini bərpa etməyə çalışırdı. 1993-cü ildə Yeltsin BMT-dən Rusiya ordusuna keçmiş SSRİ respublikalarındakı münaqişələrə "sülhməramlı ordu" qismində müdaxilə etmək üçün səlahiyyət istəmişdi. Bir qədər sonra isə yeni xarici siyasət doktrinası prezident tərəfindən təsdiqlənərək qüvvəyə minmişdir. 1993-cü ildə Rusiya parlamentdə baş verən basqından sonra daxili problemlərini həll edərək regionda güclənməyə başladı. Lakin 1990-cı illərin ortalarından sonra ABŞ-ın regionda getdikcə artan mövqeyi Rusiya-ABŞ mübarizəsinin başlanmasına səbəb olmuşdur[30].

Azərbaycan torpaqlarının işğaldan azad edilməsi üçün Rusiya ilə də danışıqlar aparılmalı idi. Bu səbəbdən Azərbaycan Qərblə enerji, hərbi, mədəni, siyasi sahədə münasibətlərini inkişaf etdirərkən Rusiya ilə əlaqələrini də diqqətdən kənarda saxlamayıb. 2010-cu ildən sonrakı dövrdə Rusiya ilə humanitar sahədə əlaqələr getdikcə inkişaf etdirilir və bu sahəyə xüsusi diqqət ayrılır [31]. Rusiya Prezidenti Vladimir Putin Azərbaycana səfəri zamanı ölkədə rus dilinə göstərilən qayğını xüsusi olaraq qeyd etmişdir.

2008-ci ildə Rusiya-Gürcüstan arasında baş verən beşgünlük müharibə Qərbin regiondakı imicinə ciddi şəkildə mənfi təsir

---

[29] Aslanlı, A. Qlobal siyasətdə Qafqaz: 22 il əvvəl və indi: [Elektron resurs]/Qafqaz Strateji və Beynəlxlaq Araşdırmalar Mərkəzi. - Bakı, 2013.
URL: http://www.qafsam.org/page/469/az

[30] Joint Statement of the U.S.- Georgia Strategic Partnership Commission Defense and Security Cooperation Working Group: [Electronic resource]/September 12, 2017.
URL: https://www.state.gov/r/pa/prs/ps/2017/09/274008.htm

[31] Маркедонов, С. Возвращаясь к подписанному. «План Медведева – Саркози»: семь лет спустя: [Электронный ресурс] /11 августа, 2015.
URL:http://www.kavkazoved.info/news/2015/08/11/vozvraschajas-k-podpisannomu-plan-medvedeva-sarkozi-sem-let-spustya.html

göstərmişdi. Bu hadisədən sonra Azərbaycanın da Qarabağ probleminin həllində Qərbdən gözləntiləri getdikcə azalmışdır. Rusiyanın Cənubi Qafqaz siyasətində prioritet təşkil edən amil regionu nəzarətdə saxlamaqla qlobal güc olmaq iddialarını həyata keçirməkdir[32]. Eyni zamanda Rusiyanın Cənubi Qafqaz siyasətini aşağıdakı qaydada səciyyələndirmək olar: Türkiyə və İran üzərindən Rusiya ərazilərinə yaxınlaşmağa cəhd göstərən dövlətləri sərhədlərindən uzaq tutmaq; Şimali Qafqazdakı etnik qrupların ayrılmaq iddialarını məhdudlaşdırmaqla ərazi bütövlüyünə dair narahatlıqları azaltmaq; təbii resursların alıcısı olan dövlətlərin Rusiyadan asılılığını saxlamaq üçün region dövlətlərinin dünya bazarlarına çıxışını məhdudlaşdırmaq.

**"ABŞ və Aİ-nin xarici siyasətinin ümumi prioritetləri və onların reallaşdırılması: oxşar və fərqli cəhətləri" adlanan ikinci yarımfəsil**də hər iki qlobal gücün region üzrə siyasətində oxşar və fərqli trendlər qeyd olunaraq açıqlama verilmişdir. ABŞ və Aİ-nin xarici siyasətini təhlil edərkən ilk növbədə həmin qurumların daxili idarəçilik sistemindəki struktur fərqlərinin mövcudluğu nəzərə alınmalıdır. Belə ki, ABŞ-da Dövlət Departamenti ilə yanaşı Konqres də xarici siyasət məsələləri üzrə qərar qəbul edilməsi prosesində yaxından iştirak etdiyi halda, Aİ-nin xarici siyasət strategiyasının formalaşmasında Brüssel və digər üzv dövlətlər arasındakı fikir ayrılığı vahid xarici siyasət modelinin tətbiq edilməsini bir qədər məhdudlaşdırır.

Aİ və ABŞ-ın Cənubi Qafqaz ölkələri üzrə xarici siyasətində başlıca fərqli cəhətlərdən biri kimi demokratiyanın təmin edilməsi istiqamətindəki müxtəlif yanaşma tərzini vurğulamaq mümkündür. Beynəlxalq sülh naminə Karnegi Fondunun vitse prezidenti, ABŞ-ın xarici siyasət məsələləri üzrə tanınmış beynəlxalq eksperti Tomas Karoterin paradiqmasına əsasən, demokratiyaya dəstək siyasəti özünü iki formada əks etdirir: onlardan birincisi siyasi, digəri isə inkişaf yanaşmasıdır ki, birinci yanaşma bilavasitə siyasi aktorların özlərinə, siyasi partiyalara və ya siyasi yönümlü QHT-lərə yardım vasitəsilə həyata keçirilir[33]. Siyasi yanaşmanın əksinə inkişaf yanaşması isə

[32] Cornell, S. Russia and the unresolved Conflicts in Eurasia // Caucasus International, - 2011, vol 1, (2).
[33] Carothers, T. Democracy Assistance: Political vs. Developmental? // Journal of Democracy, - 2009, (1), - p. 5-14.

demokratiyanın inkişafına yalnız dolayı üsullarla həyata keçirilən yardıma üstünlük verməkdədir. Siyasi yanaşma ilə inkişaf yanaşması arasındakı başlıca fərq sosial və iqtisadi inkişafa yardımın əsas məqsəd və amalını demokratiyaya dəstək prosesi ilə vəhdət şəklində deyil, onları iki müxtəlif məhfum kimi dəyərləndirməsindədir. Bununla yanaşı, inkişafa meyilli yanaşmada dövlətin iqtisadiyyatını inkişaf etdirmək amili idarəçilik islahatlarına ayrılan diqqətlə qarşı-qarşıya qoyularaq, sonda birincinin vacibliyi qənaətinə gəlinir. ABŞ-ın xarici siyasəti daha çöx inkişaf yanaşmasına meyilli olmuş və ölkənin xarici siyasət kursundakı digər nəzəriyyələr də bu yanaşmadan irəli gələn amillər əsasında qurulmuşdur. ABŞ-ın inkişaf yanaşmasının Azərbaycanda tətbiqinin ən bariz nümunələrindən biri də ölkəmizdə həyata keçirilən enerji layihələridir.

Günümüzdə, hazırkı reallıqları nəzərə alsaq, istər ABŞ-ın, istərdə də Aİ-nin region ölkələri ilə münasibətlərini yeniləməsi və ya təkmilləşdirməsi xüsusi, başqa sözlə individual yanaşma tərzi tətbiq edilərək həyata keçirilə bilər. Regionun siyasi xəritəsini dəyişdirən 44 günlük müharibənin qalibi Azərbaycanla isə münasibətlər və ritorika xüsusi ilə diqqətli seçilməlidir. Lakin hakimiyyətdə olan Co Baydenin "erməni soyqırımı" ifadəsini işlətməsi Azərbaycan və onun regiondakı əsas müttəfiqi olan Türkiyənin maraqlarının və tarixi reallıqların əksinədir. Azərbaycanı Avrasiyanın "giriş qapısı" kimi qiymətləndirsək, ABŞ-ın Azərbaycanla münasibətlərinin inkişaf etdirilməsi hazırda formalaşan yeni geocoğrafi və geosiyasi nizam və strateji maraqlarla uzlaşır. ABŞ-ın regiondan uzaqlaşması, söz sahibi olmaq nüfuzunu itirməsi, nəticədə Rusiya, Çin və İranın regionda güclənməsi deməkdir. Çünkü Azərbaycan və ümumilikdə Cənubi Qafqaz regionu genişlənən İpək Yolu və Avrasiya dəhlizinin əsas hissəsidir. Bundan əlavə, ABŞ-ın Azərbaycanla münasibətlərinin inkişaf etdirilməsi ABŞ-ın 2018-ci ildə qəbul etdiyi Milli təhlükəsizlik strategiyası ilə də üst-üstə düşür. Çünki, həmin Strategiyanın əsasını terrorizmlə mübarizə deyil dövlətlərarası rəqabət məsələsi təşkil edib, Çin və Rusiya ABŞ-ın firəvanlığına və inkişafına təhdid kimi qiymətləndirilib[34].

---

[34] Summary of the National Defense Strategy: Sharpening the American Military's Competitive Edge: [Electronic resource] / U.S Department of Defense – April 25, 2021.

Aİ-Azərbaycan münasibətlərini isə 44 günlük Vətən müharibəsi fonunda rasional xətt üzrə davam etdirilməsi daha məqsədəmüvafiqdir. Ölkə başçısının 2021-ci il, 13 aprel tarixində keçirilən konfransdakı çıxışında Aİ ilə münasibətlərin inkişaf etdirilməsi istiqamətində müsbət məqamları müşahidə etmək mümkündür. Aİ ilə aramızdakı mədəni, siyasi, iqtisadi, təhsil sahəsindəki əlaqələri və Aİ-nin "insanlararası münasibət"ə ("human to human contact") verdiyi önəmi nəzərə alaraq, Aİ-Azərbaycan əlaqələrini genişləndirməyə önəm verməsi arzuolunandır. 44 günlük Vətən müharibəsi dövründə həyata keçirilən hərbi əməliyyatlar zamanı Azərbaycana qarşı neytral deyil, bilavasitə açıq dəstək göstərən İtaliya kimi tərəfdaş Avropa ölkələrinin sayını artırmaqla bu məqsədə daha tez yaxınlaşmaq mümkündür. Qarşıda duran vacib məsələlər sırasında Aİ liderləri ilə ünsiyyətimizi daha da möhkəmləndirəcək nüfuzlu diplomatlar, ekspertlər və jurnalistlər yetişdirməkdir.

Aİ isə öz növbəsində enerji layihələri vasitəsilə Azərbaycanla münasibətlərini davam etdirməkdə maraqlıdır. Rusiyanı hər zaman enerji təhlükəsizliyinə təhdid kimi qəbul edən Aİ rəsmiləri dəfələrlə Azərbaycanı Avropa üçün təhlükəsiz enerji mənbəyi kimi qəbul etdiklərini bəyan ediblər. Bundan əlavə, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpa və yenidənqurmasında Avropa şirkətlərinin də iştirakını nəzərə alsaq, münasibətlərin müsbət tendensiyada inkişaf etdirilməsi gözlənilir.

Dissertasiyanın **Nəticə** hissəsində hər iki qlobal gücün region üzrə siyasi kursu müəyyən edilir, onlar arasında oxşar və fərqli məqamlar qeyd olunaraq tədqiqat işinin yekunları əks olunur.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı məqalə və tezislərində işıqlandırılmışdır:**

1. Azərbaycan - Avropa İttifaqı münasibətləri son 25 ildə // Bakı: Avrasiya Universitetinin "Sivilizasiya" Elmi-nəzəri jurnalı,-

URL:file:///C:/Users/Hp/Desktop/Dissertasiyan%C4%B1n_t%C9%99rtib_qaydas%C4%B11.pdf

2017. №1,- s. 333.
2. ABŞ-ın Cənubi Qafqaz siyasəti: lobbi təşkilatlarının siyasətin formalaşmasında rolu // Bakı: Bakı Dövlət Universitetinin "Tarix və onun problemləri" jurnalı, -2018. №1,- s. 376.
3. ABŞ və Avropa İttifaqının Cənubi Qafqaz üzrə xarici siyasətinin oxşar və fərqli cəhətləri // Bakı: Avrasiya Universitetinin "Sivilizasiya" Elmi-nəzəri jurnalı, - 2018. №2,- s. 88-95.
4. South Caucasus: From Collectivism to Individualism in the Framework Changing Global Determinants// Visnyk of the Lviv University,- 2018, Issue 17, - p. 167-173.
5. Avropa İttifaqının Cənubi Qafqaz siyasətinin əsas konturları: əməkdaşlıq üzrə birgə layihələrin icrası // Bakı: AMEA Fəlsəfə İnstitutunun "Müasir siyasətin və etikanın aktual problemləri" Elmi məqalələr toplusu, -2019,s. 337-346.
6. Azərbaycanın Avropanın Enerji Təhlükəsizliyində rolu// Gənc Tədqiqatçıların I Beynəlxalq Elmi Konfransı. Bakı, Azərbaycan, - 2017, - s. 483-484.
7. Avropa İttifaqı və Gürcüstan əlaqələri: qarşılıqlı əməkdaşlıq və gözləntilər // Gənc tədqiqatçıların beynəlxalq elmi-praktik konfransı. Bakı, Azərbaycan, - 2018, - s. 342-348.
8. "The U.S. and the South Caucasus: Impossible Disengagement"// İctimai elmlər üzrə IV Paris beynəlxalq konfransı. Paris, Fransa,- 2020

Dissertasiyanın müdafiəsi “24” may 2022-ci il tarixdə saat 14:00-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, Lermontov küçəsi, 74

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “23” aprel 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb 20.04.2022

Kağız formatı A5

Həcm 47353

Tiraj 100